**Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Validə Kazımovanın vətəndaş Cəfərov Hümbət Bəhmən oğlu Mərkəzi Seçki Komissiyasına daxil olmuş 26 dekabr 2009-cu il tarixli 141 saylı müraciəti üzrə**

**R Ə Y İ**

**Bakı şəhəri** **28 dekabr 2009-cu il**

**Saat 12:00**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Ağcabədi rayonu, Hindarx qəsəbə sakini Cəfərov Hümbət Bəhmən oğlunun 2009-cu il dekabr 26-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına teleqramla müraciəti daxil olmuşdur.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq araşdırmaya qəbul edilmişdir.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, müraciətdə tələb aydın göstərilməmişdir.

Müraciətlərə dair ümumi tələblər "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması

qaydaları haqqında" Təlimatın 2-ci bəndində müəyyən olunmuşdur. Həmin Təlimatın 2.1.9-cu bəndinin tələblərinə görə müraciətdə şikayətçinin tələbi olmalıdır.

Yuxarıda adı çəkilən təlimatın 2.5-cı bəndinə əsasən isə müraciətdə əgər tələb yoxdursa və bu səbəbdən tələb aydın deyilsə, müraciət onu göndərən şəxsə geri qaytarılmalıdır.

Göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1, 2, 4, 6, 7-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. Vətəndaş Cəfərov Hümbət Bəhmən oğlunun Azərbaycan Respublikası Mərkəzi Seçki Komisiyyasına daxil olmuş 26 dekabr 2009-cu il tarixində 141 saylı müraciətində tələb aydın olmadığından o, ərizəçiyə geri göndərilsin.

2. Rəy qəbul edildiyi andan 24 saat ərzində dərc edilsin (Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilisin) və surəti müraciyətçiyə göndərilirsin.

Ekspert qrupunun üzvü

V.Kazımova